# Gülən hərəkatının Azərbaycan Respublikasında təsiri

Seyid Əhməd Nikuyi[1] və Mirhadi Musəvi Qərələri[2]

**Abstrakt**

Azərbaycan Respublikası-1991 ci ildə sovetlər birliyinin dağılmasından sonra müstəqillik əldə etdi və elə həmin vaxtdan da bir sıra ölkələr Azərbaycanda siyasət ,mədəniyyət ,iqtisadiyyat kimi müxtəlif sahələrdə nüfuz qazanmaq üçün rəqabətə girişdilər .Əhli-sünnə hərəkatları arasında nurçu Türkiyə birləşməsi olan və hal-hazırda Gülən hərəkatı kimi tanınan hərəkat Azərbaycanda fəaliyyət göstərməyə başladı. Hazırkı məqalədə təsviri təhqiq metodundan istifadə etməklə Azərbaycanda fəaliyyət göstərən Gülən hərəkatının xarici münasibətləri və onun nailiyyətlərini araşdırılır .Təhqiqin nəticələri göstərir ki ,Gülən hərəkatı Azərbaycanda islami rəqabətlər sahəsində ,xüsusilə də ticarət və təhsil sahələrində uğurlar əldə edə bilib .Bununla belə onun genişlənməsi maneələrlə üzləşib .Azərbaycan cəmiyyətinin çoxluq mahiyyəti ,gülənçilərin isə türk və sünnü olması , lakin ölkə əhalisinin əksəriyyətinin şiə məzhəbli olması ,milli və tarixi kimlik Gülən hərəkatının qarşısında dayanan maneələrdən hesab olunur.

***Açar sözlər :****Azərbaycan Respublikası ,Gülən hərəkatı ,islamçı hərəkatlar*

## 1. Giriş

Azərbaycan Respublikası 1991-ci ildə SSRİ-nin parçalanmasından və müstəqillik qazanmasından sonra daxili və xarici qüvvələrin nüfuzundan təsirlənən bir sıra islami rəqabətlərin şahidi olmuşdur. Bu nüfuz qüvvələrinin qarşılaşması əksəriyyəti şiə məzhəbli və türk soylu olan Azərbaycan əhalisinə islami ruh bağışlamaq üçün bir növ yarış yaratmışdır. Bu yarışlar ilk olaraq şiə və əhli-sünnə təbliğçiləri arasında başlanmışdır. Eyni zamanda əhli-sünnə hərəkatları arasında da ölkənin daxilindəki ənənəvi sünnə hərəkatları olan şafeilər, ərəb ölkələrindən daxil edilmiş hənbəli-vəhabilər, Türkiyədən daxil edilmiş hənəfi təşkilatları arasında da yarışlar başladı.

Azərbaycanda mövcud olan əhli-sünnə hərəkatlarından ən önəmlisi Türkiyədən qaynaqlanan Nurçular hərəkatıdır[3] və hal-hazırda onun qollarından biri Gülən[4] hərəkatı adı ilə geniş fəaliyyət göstərməkdədir. Bu hərəkat öz adını onun təsisçisi olan türkiyəli müsəlman təlimçi Fətullah Gülənin adından götürmüşdür.

Gülən hərəkatı iman və din təlimləri əsasları üzərində qurulmuşdur və beynəlxalq səviyyədə, əsasən də Türkiyədən başlamış Orta Asiyaya qədər türk dilli əhali arasında geniş və yüksək səviyyədə fəaliyyət göstərir.

Gülən hərəkatı Azərbaycanda geniş cəmiyyət kütləsi ilə xüsusən də şəhər elitası[5] ilə münasibət qura bildi. Bu cərəyanın digər islami hərəkatlarından fərqi bundadır ki, Gülən hərəkatı öz dini təlimlərini aşkar təbliğ yolu ilə deyil, dünyəvi təhsil müəssisələri, ictimai medialar və professional əlaqə vasitəsilə təqdim edir.

---

1 . Beynəlxalq Münasibətlər üzrə doktorant, Afaq Mədəni Araşdırmalar və Strateji Münasibətlər Mərkəzinin icraçı direktoru.
2 . Beynəlxalq təşkilatlar və diplomatiya üzrə magistr, Afaq Mədəni Araşdırmalar və Strateji Münasibətlər Mərkəzində tədqiqatçı.
3 . Nurcular Movement.
4 . Gulen.
5 . Urban elites.

Üstəlik, SSRİ-nin dağılmasından sonra Azərbaycanda baş qaldıran dini yarışmalara və söz-söhbətlərə Gülən hərəkatı özünü qatmadı. Halbuki, Azərbaycan sekülarlar, islamçı fəallar və liberal insan hüquqları müdafiəçiləri arasında İslam və müsəlmanların hüquqları barədə çoxlu mübahisələr yaranmışdır. Bu bərk qarşıdurmalar ümumi mühitdə hicablı olub-olmamaq kimi mövzularda özünü göstərmişdir. Lakin, Gülən hərəkatı bu məsələlərə qarışmadı və sükut etdi.

Hazırkı məqalədə Gülən hərəkatının Türkiyənin Nurçu cərəyanına bağlı bir hərəkat olaraq Azərbaycan Respublikasında iştirakı, fəaliyyəti, kontekst və zəminələri, prespektivləri araşdırılır. Araşdırmada təsviri təhlil metodundan istifadə edilmişdir və "Gülən hərəkatının Azərbaycan Respublikasında xarici münasibətləri necədir? Və bu hərəkat öz gündəliyində və işlərində uğurlar əldə edə bilibmi?" kimi suallara cavab verməyə çalışır.

## 2. Tədqiqin məlumatı

### 2.1. Gülən hərəkatı: keçmişdə və indi

Gülən hərəkatı beynəlxalq təşkilat və fərdlər şəbəkəsi olaraq türkiyəli müsəlman təlimçi Fətullah Gülənin[6] təlimlərini öz sərlövhəsi qərar vermişdir və onu izləyir. Fətullah Gülənin özü Türkiyənin müasir İslamında mühüm şəxsiyyətlərdən sayılan və 1920-ci illərdə Paşa Osmanlı dövründə Nurçular təriqətinin əsasını qoyan Səid Nursinin[7] (1878-1960) ardıcıllarından sayılır. Nursi heç vaxt bibaşa siyasətə qarışmasa da dini sahədə nüfuzlu mütəfəkkir kimi tanınır. Səid Nursi Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün sekülar ideologiyasına qarşı mənfi münasibətdə olmuşdur. O, 1935-ci ildə Türkiyə dövlətinin düşməni elan olunmuş və ömrünün 11 ilini həbsdə keçirmişdir (Balci, 2003: 2).

Tamamilə aydındır ki, dövlət rəsmiləri və Atatürkün tərəfdarları Nursinin təlimlərinə təhdid gözü ilə yanaşır və ardıcılları Nursi tərəfindən təşkilatlanan yarı məxfi hərəkatdan qorxurdular. Özlərinə Nur Tələbələri[8] adı verən bu qrup müəyyən dövr müddətində sadəcə olaraq, Nurçu hərəkat kimi tanınan ardıcılları tipik sufi ordenlərində mövcud olan qaydalar əsasında birləşib iyerarxik bir təşkilat qurmuşdular və tezliklə Nurçu[9] adı ilə tanındılar.

Nurçuluğun əsasları Səid Nursinin "Risaleyi-Nur" külliyatında ifadə edilmişdir. Onun ölümündən sonra şagirdləri və yaxın ardıcılları Türkiyənin müxtəlif şəhərlərində Nursinin fəlsəfəsini təlim edən kurslar təşkil edirlər. Çox keçmir ki, Nursinin şagirdləri arasında fikir ayrılıqları yaranır və nəticədə təriqət bir neçə qrupa bölünür. O qruplardan bəziləri bunlardır:

---

[6] . Fethullah Gulen.
[7] . Said Nursi.
[8] . Nur Talebelri= Followers of Light.
[9] . Nurcu Movement.

Əhməd Hüsrey Altınbaşak[10], Mehmet Kayalar[11], Hulusi Yəhyagül[12], Zübeyr Gündüzalp[13], Mustafa Sunqur[14], Mehmet Kurdoğlu[15]. Bu qruplar zaman keçdikdə özlərini gücləndiriblər.

1950-ci ildə Türkiyə Böyük Millət Məclisi[16] Səid Nursinin ədəbi irsinin reabilitasiyası haqqında qərar çıxardı. Bununla da Səid Nursinin əsərləri leqallaşdı, onların yayılmasında və tərcüməsində problemlər aradan qalxdı. Amma buna baxmayaraq, Nursi hərəkatına şübhəli münasibət qalmaqda davam edir (Aliyev, 2012).

1970-ci ildə İzmirin xarizmatik imamı olan Gülən Hacı Əfəndi Nursi ideyalarının təliminə və Türkiyədə Islamın dirçəlişi çağırışlarına başladı. İlk vaxtlar Gülən, Zübeyr Gündüzalpın Yeni Asiya hərəkatını dəstəkləsə də, az sonra bu hərəkatı dini missionerlik üçün çox siyasi hesab edərək onunla əlaqələri kəsdi (Fulya, 2001). Bundan sonra Gülənin özünün sadiq ardıcılları yarandı ki, onlar da Səid Nursinin və Fətullah Gülənin özünün risalələrini öyrənib təbliğ etməyə başladılar.

Gülən çox tez bir zamanda öz vəfadar tərəfdarlarını cəzb edə bildi və onlar şaquli strukturlu və səmimi bir təşkilat yaradaraq öz vaxtlarını Nursinin görüşlərinin və Gülənin əsərlərinin mütaliəsinə sərf etdilər.

70-ci illərdən Nurçular hərəkatının daha bir mükəmməl və geniş şəbəkəsi də vardır. Bu, Mustafa Sunqurun rəhbərliyi altında olan Nurçu camaatıdır. Amma ekspertlər belə hesab edirlər ki, Gülən hərəkatını başqa təriqətlərdən və camaatlardan bir neçə mühüm faktor ayırır. Bunlar, həddən artıq ciddi intizam, vertikal idarəçilik münasibətləri, kapitalizmə isti münasibət, hətta biznes strukturlarının mövcudluğu, daxili qaydaların məxfliyi, hərəkatın inkişafı üçün assosiasiyaların və medianın gücündən fəal şəkildə faydalanmaq prinsipləridir (Davidov, 2007).

1970-illərdə bu şəbəkənin birdən-birə peyda olması dünyəvi Türkiyədə böyük şübhələr doğurmuşdu. Sonra Türkiyə hökuməti davamlı olaraq Fətullah Gülənin fəaliyyətini araşdırmağa və bu fəaliyyəti təqib etməyə başladı. Daha sonra isə Gülən ABŞ-a köçərək, orada yaşamağa qərar verdi və hal-hazırda orada yaşayır. Amma onun hərəkatı ana vətəndə, yəni Türkiyədə və onun xaricində bütün əzəməti ilə mövcudluğunu saxlamaqdadır. Özünün işgüzar əlaqələri vasitəsilə topladığı nəhəng kapitalla Hərəkat Türkiyədə və bütün dünyada sosial tədbirlər həyata keçirməkdədir (Sık, 2012).

Mətbuatda yayılmış təhlillərə əsasən, söyləmək olar ki, 1980-lərdən maliyyə imkanlarını artırmaqla məşğul olan Gülən hərəkatının ümumi əməliyyat kapitalının həcmi 50 milyard dollardan artıqdır (Davidov, 2007).

---

[10] . Hüsrev Altınba¸sak.
[11] . Mehmet Kayalar.
[12] . Hulusi Yahyagil.
[13] . Zübeyr Gündüzalp.
[14] . Mustafa Sungur.
[15] . Mehmet Kurdoglu.
[16] . Turkish Grand National Assembly.

Dünyanın 115 ölkəsində Gülən hərəkatının şəbəkəsinə daxil olan 500-dən artıq müəssisə, 6 universitet, 700-dən çox məktəb, 14 jurnal, ən çox oxunan "Zaman" qəzeti, qlobal "Saman Yolu"[17] telekanalı və daha iki radiokanal mövcuddur (Ibid).

Türkiyədəki "Konsensus"[18] şirkətinin keçirdiyi sorğunun nəticələrinə görə, hazırda Gülən hərəkatı Türkiyədə ələvilərdən sonra ikinci böyük dini icmadır. Türkiyə Silahlı Qüvvətlərinin[19] təqdimatına görə isə ölkədə Fətullah Gülənin ardıcıllarının sayı 4 milyon nəfərdən artıqdır (Alekperov, 2012).

Gülən hərəkatının da Türkiyədə digər Nurçu hərəkatlarda olduğu kimi bir-birinə əlaqəli olan silsiləli təşkilatı vardır. Ona görə də demək olar ki, şəhər səviyyəsində olan bir şöbənin aşağıdakı bölmələri vardır:

Şagirdlər bölməsi[20], şəhər imam[21] (şagird və rəhbərlərindən ibarət olan 5 nəfərllik qrup), səmt imam[22] (şəhər bölməsi, təhsil mərkəzləri və onların rəhbərlərinə bağlı olan 5 nəfərlik heyət), bölgə imam[23] (məntəqənin başçısı) (Davidov, 2007).

Şagirdlər, məhəllə səviyyəsində qəbul olunur və nurçu abi və ablalar[24] (qardaş və bacılar) tərəfindən nəzarət olunur. Bu şəbəkənin sabiq üzvlərindən birinin dediklərinə görə şəbəkənin daxilində təhlükəsizlik xidmətləri fəaliyyət göstərir və onların vəzifəsi şəbəkənin daxilinə nüfuz etmiş dövlət təhlükəsizlik casuslarını tapıb aradan qaldırmaqdır (Ibid).

Bu şəbəkənin məlumat bazası vardır və orada öz üzvlərinin hamısının məlumatları toplanmışdır. Hər bir yeni şagirdin təlimində bu məsələyə çox təkid edilir ki, həmin şagird özünün Gülən hərəkatına bağlılığı barədə çox ehtiyatlı olsun və bu məlumatı heç kimə açmasın. Bundan əlavə, şagirdlərə şəbəkənin rəhbərlərinə hörmət etməyi və onların sözünə baxmağı öyrədirlər.

SSRİ-nin parçalanmasından sonra Gülən hərəkatı öz təlimlərini beynəlxalq səviyyəyə çıxarmaq üzərində çalışdı və bu məqsədlə sovetlər birliyindən ayrılmış və müstəqillik qazanmış Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri [25], habelə Rusiya Federasiyasının ərazisində yaşayan müsəlman cəmiyyətlərə arasında öz missiyasına başladı (Arif, 2012).

Gülən hərəkatı da eynilə məzhəbi dirçəltmək istəyən digər islamçı hərəkatlar kimi sekülar mühitli postsovet ölkələrində bərk müqavimətlə qarşılaşdı. Bir çox tədqiqatçılar belə düşünür ki, Rusiya və MDB ölkələrində dövlət nəzarətinə görə Gülən hərəkatı transmilli yarımservislər təşkil etməyə məcbur oldular və onların sayı təxmin edildiyindən daha çoxdur (Ibid).

---

[17] . Samanyolu TV channel.
[18] . Konsensus.
[19] . High Command of the Armed Forces of Turkey.
[20] . Shagirdlar.
[21] . Uy imam.
[22] . Semt imam.
[23] . Bloge imam.
[24] . Abi ve abla.
[25] . Commonwealth of Independent States.

Bu hərəkatın gizli və sirli xüsusiyyətləri onların fəaliyyət və hədəfləri barədə diqqəti çəkən şəkk-şübhə yaradır. Mixail Devidovun[26] fikrincə Gülən hərəkatı casusluq xidmətləri kimi çox məxfi əməl edir və türk dilli ölkələrdə və özünü genişləndirmək istədiyi məntəqələrdə siyasi, iqtisadi və etiqadi sahələrdə məlumat toplayır (Davidov, 2007).

Həmçinin, iddia olunur ki, bu hərəkatın Türkiyə hökuməti və MDB ölkələrinin hökuməti daxilinə nüfuz etmək üçün məxfi fəaliyyətləri vardır və özünə vəfadar ardıcıllarını bu ölkələrdə mühüm vəzifələrə gətirməyə cəhd edir (Ibid). Qeyd olunan məsələlərə görə də dövlət rəsmilərinin anti-İslam olduğu Rusiya və Özbəkistan kimi ölkələr bu hərəkatın fəaliyyətlərini qeyri-qanuni elan ediblər və onu özləri üçün bir növ təhdid sayırlar. Mərkəzi Asiyanın digər dövlətləri də Gülən hərəkatına qarşı olduqca ehtiyatla yanaşırlar. Lakin bəzi ölkələr, o cümlədən Azərbaycan Respublikası öz qapılarını Gülən hərəkatının üzünə həmişə açıq qoymuşdur. Ona görə də bu hərəkat özünün ən böyük uğur və nüfuzunu Azərbaycanda qazanmışdır.

## 2.2. Gülən hərəkatının Azərbaycan Respublikasında iştirakı

SSRİ parçalanmasından və Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra Gülən hərəkatı Azərbaycana öz nüfuzunu yeritməyə başladı. Türkiyədən sonra 1992-ci ildə Azərbaycan Gülən məktəblərinin açıldığı ikinci ölkə idi (Goksel, 2011).

Hərəkatın Azərbaycanda ilk fəaliyyətləri "Zaman" qəzetinin baş direktoru İlhan İşbilənin bu ölkənin rəsmiləri ilə görüşlərindən başladı. Görüşdən az bir müddət sonra Zaman qəzeti Azərbaycanda nəşrinə başladı, hərəkat öz təlim müəssisələrini açdı, Samanyolu telekanalı işə düşdü və digər aidiyyatı şirkətlər də öz fəaliyyətlərinə başladılar. Bu arada hərəkatın regional rəhbəri Əli Bayram, Naxçıvan Muxtar Respublikasında sonradan Azərbaycanın prezidenti olmuş Heydər Əliyevlə görüşdü. Əli Bayramın görüşünün üstünlüyü və əhəmiyyəti onda idi ki, ermənilərin maneçiliyi və sanksiyaları üzündən əziyyət çəkən Naxçıvan MR-nı dəstəkləyir və himayə edirdi. Ona görə də Əliyevin inamını qazana bildi (Aliyev, 2012).

Heydər Əliyevin dəstəyini qazanan Gülən hərəkatı yaranmış fürsətdən və real imkanlardan öz hərəkatlarını genişləndirmək üçün istifadə etdilər. 1993-cü ildə hərəkat artıq öz ticarət və təlim şəbəkələrini qura bilmişdi. Məsələn, Azərbaycanlı alim Arif Yunusun[27] dediyi kimi Azərbaycanda özünü "sığortalayan" şəbəkə burada kommersiya strukturları qurmaqla əldə etdiyi gəlirləri Nursi ideyalarının təbliğinə yönəltməyə başladı. Bu kommersiya strukturlarının şəbəkəsinə İstiqbal[28], Romanson[29], Ülkər[30] kimi saat, mebel və konditer istehsalı sexləri daxildir (Yavuz, 2004).

---

[26] . Mikhail Davidov.
[27] . Arif Yunus.
[28] . Istigbal.
[29] . Romanson.
[30] . Ulker.

Bu şəbəkənin biznes silsiləsi bu günləri "Çağ Öğretim"[31] təhsil müəssisəsi, ofis ləvazimatı şəbəkələri və Nil kitab mağazası[32], TÜSİAB (Azərbaycan Türk Sənayeçi və İşadamları Beynəlxalq Cəmiyyəti) biznes qurumu[33], Zaman qəzetinin nəşriyyatı, Burç FM radio stansiyası[34], Xəzər telekanalı[35], Gəncliyə Dəstək Fonduna[36] şamil olur.

Diqqəti çəkən məsələ budur ki, hərəkatın media verlişləri aşkar dini şəkildə deyil. Həqiqətdə bu kanallarla digər qeyri-sekülar kanallar arasındakı fərqi başa düşmək adi və təcrübəsiz insanlar üçün çox çətindir. Lakin, Gəncliyə Dəstək Fondunun dəstəklənməsi yönümündə aparılan işlər dini ab-havadadır. Belə ki, xeyriyyə işləri, ingillis dilində öyrədilən dərslər, uşaqlar üçün kömpüter öyrədilməsi ilə yanaşı ərəb dili və Quran əzbərlənməsi də öyrədir. Habelə, İslam dininə aid dini kitablarla, həmçinin Səid Nursinin və Fətullah Gülənin kitabları ilə dolu olan kitabxana təsis etmişdir.

Azərbaycanda hərəkatın sürətli inkişafı və dövlətin onu dəstəkləməsi həmişə qonşu Türkiyədə sekülar rəsmilər tərəfindən əsəbi qısqanclıqla qarşılanıb. 1998-99-cu illərdə Bakıdakı təmasları zamanı Türkiyənin yüksək rütbəli şəxsləri bu hərəkatın dini mahiyyətinə işarə edərək, rəsmi Bakıya açıq şəkildə narazılıqlarını bildirmişdilər. O zaman Əliyev bunu qətiyyətlə təkzib etmişdi və onlar tərəfindən heç bir təhdidin olmadığını bildirmişdi.

Hal-hazırda Azərbaycanda Gülən hərəkatının 14 təhsil müəssisəsi var. Bunlar, Qafqaz Universiteti[37], də daxil olmaqla bir özəl məktəb və 12 litseydir: Bakı Özəl Türk Liseyi[38], Bakı Liseyi[39], Sumqayıt Liseyi[40], Ağdaş Liseyi[41], Gəncə Liseyi[42], Quba Liseyi[43], Lənkəran Liseyi[44], Mingəçevir Liseyi[45], Şəki Liseyi[46], Şirvan Liseyi[47], Naxçıvan Liseyi[48], Ordubad Liseyi[49], Şərur Liseyi[50] (Arif, 2012).

Hərəkatın bu və ya digər ölkədə başqanı həmin ölkədəki təhsil şəbəkəsinin rəhbəri olan şəxsdir. Azərbaycanda da bu şəxs "Çağ" Öyrətim A.Ş.-nin başqanı Ənvər Özerendir.

---

31 . CAğ ÖYRET˙IM A.
32 . NIL.
33 . TÜS˙IAB.
34 . Burc FM Radio station.
35 . Xazar TV.
36 . Youth Foundation.
37 . Qafqaz University (Qafqaz Universiteti), Baku http://www.qafqaz.edu.az/.
38 . Bakı Özəl Türk Liseyi (Baku Private Turkish High School) http://baki.cag.edu.az.
39 . Bakı "Dədə Qorqud" Özəl Türk Liseyi (Baku "Dede Gorgud" Private Turkish High School) *"Qafqaz" Azərbaycan – Türkiyə Özəl Gimnaziyasi (Caucasus Private Gymnasium) Kafkas İlköğretim Okulu (Caucasus Elementary School) http://ilkogretim.cag.edu.az *.
40 . Sumqayıt Özəl Türk Liseyi (Sumgait Private Turkish High School) http://www.sumqayit.cag.edu.az.
41 . Ağdaş Özəl Türk Liseyi (Agdash Private Turkish High School) http://agdas.cag.edu.az.
42 . Gənce Azərbaycan-Türkiyə Özəl Liseyi (Ganja Private Turkish High School) http://gence.cag.edu.az.
43 . Quba Özəl Türk Liseyi (Guba Private Turkish High School) http://quba.cag.edu.az.
44 . Lənkəran Özəl Türk Liseyi (Lenkaran Private Turkish High School) http://lenkeran.cag.edu.az.
45 . Mingəçevir Özəl Türk Liseyi (Mingachevir Private Turkish High School) http://mingecevir.cag.edu.az.
46 . Şəki Azərbaycan - Türkiyə Özəl Liseyi (Sheki Private Turkish High School) http://sheki.cag.edu.az.
47 . Şirvan Özəl Türk Liseyi (Shirvan Private Turkish High School) http://shirvan.cag.edu.az.
48 . Naxçıvan Özəl Türk Kolleci (Nakhchivan Private Turkish High School).
49 . Ordubad.
50 . Sharur.

Bu şəbəkə hər bir ölkədə adətən, üç, yaxud dörd qrupa bölünür. Birinci qrupda Gülənlə daha yaxından və birbaşa əlaqəsi olan adamlar dayanır. Bu qrupda ona ən sadiq və ən vəfadar ardıcıllar yerləşir. İkinci qrupa şəbəkə üçün birbaşa işləyənlər və şəbəkənin ali hədəflərinə çatmağa kömək edənlər daxil olur. Üçüncü qrup isə şəbəkəyə maraq göstərən jurnalistlər, biznes adamları, ümumi rəsmilər, Gülən məktəblərinin şagirdləri və Gülənin dostlarından təşkil olunub.

Üçüncü qrup şəbəkənin rəsmi qrupu sayılmasa da onların vasitəsilə hərəkatın öz hədəflərini həyata keçirməsinə daha asan nail olmaq olar.

"Çağ Öyrətim" Azərbaycan Respublikasında Gülən hərəkatının koordinasiya mərkəzi hesab edilir. TÜSİAB[51] da şəbəkə ilə əlaqəli peşə və bizneslərin mərkəzi nöqtəsi rolunu oynayır. Lakin, TÜSİAB barədə əhəmiyyət kəsb edən məsələ budur ki, bu qurum Türkiyə və Azərbaycan tacirlərini birləşdirən bir təşkilatdır və onun iştirakçılarının hamısı Gülən hərəkatının üzvləri deyil.

2002-ci ildə Türkiyə İş Adamları Dərnəyi[52] Gülənsiz bir ticatət qurumu kimi yarandı. 2004-cü ildə bu qurum Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB)[53] adlandı. Bu birliyin yaranmasının əsas səbəblərindən biri bu idi ki, Türkiyənin bir sıra iş adamları birlikləri bu hərəkatla əlaqələnmək istəmirdilər. İkinci səbəb isə Türkiyənin baş naziri Ərdoğanın Azərbaycan Respublikasına səfərindən sonra Türkiyənin qeyri-Gülənçi iş adamlarının Azərbaycanda rusvay olmaları oldu. Deyilənlərə görə, bu səfər Gülən təşkilatları vasitəsilə razılaşdırılmışdı və qabaqcadan başqaları ilə məsləhətləşilməmişdi. Medianın məlumatına əsasən, Gülən hərəkatının bu işə qatılması hərəkatla heç bir əlaqəsi olmayan Türkiyə iş adamlarının narahatlığına səbəb oldu (Ismaylova, 2003).

Gülən şəbəkəsi tərəfindən Azərbaycanda yaradılmış bütün ticarət təşkilat və qurumları bir növ qarşılıqlı əməkdaşlıq və uyğunluq əsasında fəaliyyət göstərirlər. Məsələn, daha böyük[54] bacı-qardaşlar şəbəkənin bütün üzvlərini, xüsusilə də şəbəkənin tələbə evlərində (İşıq evləri), yaxud şəbəkənin idarələrində yaşayan tələbələri şəbəkəyə bağlı mağazalarla alqı-satqı etməyə və yeməklərini şəbəkənin nəzarəti altında olan restoranlardan hazırlamağa təşviq edirlər. Həmçinin şəbəkənin üzvləri təkcə Samanyolu və Xəzər telekanallarına baxmağa, Xəzər və Burç radiolarını dinləməyə, Zaman qəzetini oxumağa təşviq edilir (Telmanqizi, 2009).

Hərəkatın Azərbayacanda ən açıq-aydın uğurlarından biri televiziya və radio kanalının olmasıdır və bu müasir Azərbaycanda gülənçilər üçün çox önəmli və böyük nailiyyətdir. Çünki hakim elitadan başqa bu ölkədə heç bir qurum Gülən hərəkatının mediada nüfuz qazanması qədər nüfuz əldə edə bilməyib. Gülən hərəkatının xarici bir cərəyan olması və sekülar bir mühitdə dini mövzularla çıxış edən media fəaliyyəti daha nəzərə çarpan görünür.

[51] . TUSIAB: TÜSiAB Azərbaycan Turk Sənayeci və IŞadamları Beynəlxalq Cəmiyyəti (Azerbaijan Turkish Industrialists and Business People International Society).
[52] . Türk IŞ Adamları Dərnəyi: Turkish Business People Club.
[53] . Azərbaycan Türkiyə IŞ Adamları Birliy: Azerbaijan Turkey Business People Union.
[54] . Elder.

Bu hərəkat Azərbaycana gəldiyi zamandan ölkənin elitasının övladlarını hərəkatın nəzarəti altından olan təhsil mərkəzlərinə cəlb etməyə cəhd etdilər. Habelə, gələcəkdə teknokrat, biznesmen, siyasətçi ola biləcək gəncləri özünə cəlb etdi. Araşdırmalara görə bu işində də müvəffəqiyyət qazanmışdır.

Orta İslam və pantürkizm millətçiliyinin qarışığı olan Gülən hərəkatının mesajları azərilərin çoxu üçün cəlbedici idi, xüsusən də gənclər arasında çox isti qarşılanırdı.

Faktlar görsərir ki, hal-hazırda Azərbaycanın Milli Məclisində, Prezident Aparatında və digər dövlət orqanlarında Gülən hərəkatına bağlı deputat və yüksək çinli rəsmilər vardır, yaxud da bu hərəkatı dəstəkləyirlər.

Hərəkat, problemlərə baxmayaraq dövlət rəsmilərindən əlavə, öz təhsil müəssisələrinin məzunları, həmçinin hərəkatla yaxın əlaqəsi olan iş adamları üçün də şəbəkə yarada bilmişdir (Mamedov, 2012).

Gülən məktəbləri üçün MDB ölkələrindən fərqli olaraq Azərbaycanda heç bir qanuni problem və məhdudiyyət olmayıb, üstəlik Azərbaycan dövləti təfəfindən dəstəklənib. Bəziləri belə düşünür ki, hərəkatın Azərbaycanda rəsmi qarşılanması onun bu ölkənin sekülar quruluşu və iqtisadiyyatında qarışmasını göstərir. Əlbəttə, hərəkatın Azərbaycan cəmiyyətinə maddi köməkləri də təsirsiz olmayıb (Dogan, 2011).

Bununla belə, hərəkatın Azərbaycanda rəsmi qəbulu onun ümumi fəaliyyət və təhsil bayrağı altında gizli siyasi işlər apara biləcəyi barədəki şəkk-şübhələri aradan qaldıra bilməyib.

Türkiyədə İslam təmayüllü bir partiyanın dövlət başına gəlməsi Azərbaycanda bu qorxu və şübhələri bir az da artırmışdır. Bir çoxlarının fikrincə Türkiyədə Ədalət və İnkişaf Partiyasının hakimiyyətə gəlməsinin nurçuların və Gülən hərəkatının dəstəyi sayəsində mümkün olması, hərəkatın Azərbaycandakı tərəfdarları üçün də maraq yarada bilər.

2009-2010-cu illərdə bir neçə anti-nurçu medialar fəaliyyətə başladı. Bu medialarin Azərbaycan bölmələrindən yayımlandı ki, Azərbaycanda Türkiyənin bir neçə yüksək məqamlı rəsmisi radikal islamçılığı təbliğ etdiyinə görə həbs edilmişdir. Bütün Qafqazın Şeyxi Hacı Allahşükür Paşazadə[55] nurçu ideologiyasının və onların Azərbaycanda fəaliyyətinin tənqidçisi kimi tanınır (http://az.trend.az).

Həmçinin, Azərbaycanın sekülar mediaları nurçu şəbəkələri ölkə gənclərinin beynini yumaqda tənqid etdilər (Turan and Telmanqızı2009).

Hətta, bu medialar ara-sıra Gülən hərəkatının sabiq üzvləri barədə verlişlər hazırlayırlar və onlar hərəkatın daxinlində gedən proseslər,  necə cəzb olmaları, təlim görmələri, psixoloji söhbətlərlə cəlb olmaları, sonra da şəbəkənin bacı-qardaşların nəzarəti altına düşmələri barədə danışırlar.

[55] . Haji Allahshukur Pashazade.

Faktlar göstərir ki, hərəkat öz təhsil müəssələrində oxumuş yaşı az olan şagirdləri özlərinin xüsusi evlərinə çəkməyə cəhd edirlər. Bu evlərdə 15 şagird və 3-4 (şəbəkə) bacı-qardaş(ı)[56] yerləşə bilər (Ibid). Bu evlərdə böyük bacı-qardaşlar İslamın əsaslarını, Səid Nursinin və Fətullah Gülənin baxışlarını öyrədirlər. Seçilmiş şagirdlər ağabəylər[57] dərəcəsinə yüksəlirlər və bu da böyük qardaş mənasınadır. Bu mərhələdən sonra onlar özləri də digər gəncləri şəbəkəyə dəvət edə bilərlər (Arif, 2012).

Mediaların verdiyi xəbərlərə görə, hərəkata tabe olduqlarına və ona vəfadar qaldıqlarının qarşılığında hədiyyələr alır və hərəkat onların bütün maddi və təhsil problemlərini aradan qaldırır, onların təhsil və mənzil xərclərini ödəyir, Gülənə bağlı şirkətlərdə, hətta qeyri-Gülənçi şirkətlərdə onları işlə təmin edir.

Bu mövzuya diqqət etmək lazımdır ki, Azərbaycanda həbs edilmiş nurçu fəallar S. Nursinin təfəkkürünü yayan türkiyəli, yaxud azərbaycanlı nurçular olub və indiyə kimi Gülən hərəkatına birbaşa bağlı olanlardan heç kəs həbs edilməyib. Üstəllik, Azərbaycan medialarının tənqid etdikləri və qarşısını almağa çalışdıqları əsasən, nurçu hərəkatına bağlı islami-türkiyəçi fikirlər olub. Çox nadir hallarda Gülən hərəkatı ilə bağlı sözlər də deyilə bilər. Azərbaycanda Gülənə bağlı olmayan nurçu fəallar vardır ki, onlar bu ölkənin sekülar mühitində lazımınca həzm olmayıblar və əsasən, təbliğ işləri ilə məşğuldurlar. Ən çox da Azərbaycanın kənd ərazilərində fəaliyyət göstərirlər. Məsələn, nurçuların rəhbəri Mustafa Sunquru dəstəkləyən çoxları vardır ki, onlar S. Nursinin dərslərinin və əsərlərini qeyri-rəsmi dairələrdə və xüsusi məkanlarda alırlar. Nurçu hərəkatının seçilmiş şagirdləri və ardıcılları öz dini təhsilini davam etdirmək üçün Türkiyəyə göndərilir (Ibid).

**2. 3. Birləşmə, ya gizli motivlər?**

Sabiq SSRİ-dən ayrılmış digər ölkələr kimi Azərbaycanın da bu ölkənin rəsmi qruluşunu və mədəniyyətini formalaşdıran, anti-İslam ümumi hisslər yaradan sovetdən miras qalmış sekülarizmə qalib gəlmək üçün uzun yolu vardır. Ona görə də bu ölkədə İslamın dirçəlişi din və həyat barədə ümumi debatlara səbəb olmuşdur. Anti-din radikal müxalif nəzərlərə diqqət etməklə Azərbaycanın necə bir camiə olması barədə İslam ictimai müzakirənin əsas mövzusuna çevrilmişdir.

Digər islami hərəkatlardan  fərqli olaraq Gülən hərəkatı Azərbaycanın sekülar dövləti ilə qarşıdurmaya qatılmadı və sekülar quruluşu devirməyə cəhd edən deyil, özünü ölkənin quruluşuna qatmaq istəyən ictimai bir hərəkat kimi təqdim etməyə çalışdı. Hərəkat hər növ siyasi qarşıdurmadan çəkindi, halbukiküncə çəkilmə və camiədən uzaq olmaqla da müxalifdir. Gülən hərəkatının mötədil yanaşmasına baxmayaraq, hələ də Azərbaycanın bəzi dairələri bu hərəkata qarşı bədbindirlər. Onlar belə düşünür ki, hərəkatın camiəyə qatılmaq fikrində olması aldadıcıdır və hərəkatın əsas məqsədi maddi, siyasi, ictimai gücdən istifadə edərək daha çox nüfuz qazanmaqla ölkədə islam qanunvericiliyi əsasında vətəndaş cəmiyyəti yaratmaqdır

[56] . Abi ve  abla.
[57] . Agabeys

(Mamedov, 2012 ). Gülən şəbəkəsi bu nüfuzu əldə edə biləcəyi surətdə dövlətin quruluşunu dəyişdirmək istəmələri də güman edilir.

Bir çox aspektlərə əsasən demək olar ki, bu hərəkatın Azərbaycanda məxfi və sirli mahiyyəti, missiya taktikası, öz nəzərində tutduğu təlimlərin tərvici üçün sekülar təhsil mərkəzlərindən istifadə etmək və aşkar siyasi və dini fəaliyyətlərdən uzaq olmaq hərəkatın Atatürk zamanı öz fəaliyyətini təzə başlaması və hökumətin ciddi təhlükəsizlik tədbirləri ilə izlənməsi zamanının fəaliyyətlərinə oxşayır. Halbuki, islami təmayüllərin bir hissəsi Türkiyədə hökumət başına gəlmişdir və bu hərəkatın Türkiyənin siyasi səhnəsində çox aktiv iştirakı vardır. Bu tərtiblə bir sıra ekspertlər belə düşünürlər ki, hərəkat dövlətin siyasətlərini nəzarətdə saxlamaq üçün ictimada iştirak edir. Lakin müvəqqəti olaraq özünü hazırkı quruluşla uyğunlaşdırmağa çalışır və camiəyə uzun müddət qatılmaq fikri yoxdur.

Bu narahatlıq, şəkk-şübhələrə baxmayaraq indiyə kimi hərəkatın məxfi siyasi fəaliyyəti haqqında heç bir tutarlı fakt tapılmayıb. Hərəkatın rəhbərləri ölkənin siyasi elitası ilə anlaşıb və aşkar olaraq Əliyev hökumətini dəstəkləyib, onlarla əməkdaşlıq edib. Ona görə də hal-hazırda dövlət bu hərəkatı öz sekülar rejiminə qarşı təhlükə görmür. Habelə, ölkədə yaranmış islami dirçəliş ideologiyası, vəhabi terrorçuluğunun genişlənməsi, digər islami məzhəblərin nüfuzunun artması qorxusu olduğu bir dövrdə Gülən hərəkatı özünü mötədil təqdim etməklə İslamın qəbul ediləsi forması üzərində siyasi baxımdan özünü ölkə siyasəti ilə uyğun göstərə bildi. Bu hərəkat Azərbaycana gələndə onun dini kimliyi bəlli idi. Amma bu günləri hərəkatın üzvləri ictimaiyyət arasında öz məzhəblərini gizli saxlamağa çalışırlar. Məsələn, bu günləri Qafqaz Universitetində İslami araşdırma üçün heç bir bölmə yoxdur, hətta universitetin namazxanası da yoxdur.  Gülənə bağlı digər aparatlarda heç dini mərasimlər də keçirilmir (Ramazani, 1391).

Bir çox dəlillərə görə Azərbaycan rəsmilərinin bu hərəkata qarşı hücuma keçmələri və onların fəaliyyətlərinə mane olmaq istəmələri ağılabatan deyil.

Birnci dəlil budur ki, hərəkatın Türkiyədə yüksək və güclü nüfuzuna diqqət etməklə onunla hər hansı qarşıdurma Türkiyə-Azərbaycan münasibətlərinə acı təsir qoya bilər.

İkinci dəlil budur ki, bu hərəkat Türkiyədən qıraqda artıq çox güclənmişdir və Avropa, ABŞ və digər ölkələrdə yaşayan türk cəmiyyətinə təsir qoyur.

Üçüncü dəlili Azərbaycanda şiələrin çoxluq təşkil etməsini bilmək olar. Belə durumda Gülən hərəkatı şiələr və İranın nüfuzu qarşısında təbii nəzarət vasitəsi kimi istifadə edilə bilər. Ona görə də bəzi təhqiqatçıların fikrincə, Azərbaycan hökuməti Türkiyənin islami nüfuzunun genişlənməsini daxili rəqabət və İran adlı rəqib dinamikasından üstün tutur (Balci & Goyushov 2012).

Həmçinin, bu hərəkat Azərbaycanda vəhabi formasında meydana çıxmış sünnü radikalizminin qarşısında səngər rolunu oynayır.

Dördüncü dəlil budur ki, hərəkat bir neçə uğurlu təhsil sistemini idarə edir və Azərbaycanın siyasi elitasının bir çoxunun övladları bu mərkəzlərdə təhsil alır.

Nəhayət, Azərbaycan rəsmilərinin, oliqarxlarının bir çoxunun ticarət və hesab-kitabları Gülən hərəkatına bağlı təşkilatların əlindədir və bu da hərəkatın qalmasına zəmanət verir (Mamedov 2012).

Türkiyənin daxili hadisələrini və onun Gülən hərəkatına təsirini də diqqətdən uzaq saxlamaq olmaz. İstanbulun Taksim meydanında baş verənlər və Ərdoğanın radikal və müdaxiləçi siyasətləri, xüsusilə də Suriya hadisələrinə müdaxilə etməsindən sonra Gülən hərəkatı ümumi camaat arasında öz mövqeini qorumaq üçün dövlətə dəstəyini azaltmış, hətta bəzən onunla müxalifət də etmişdir. Son aylarda Ərdoğan bir neçə dəfə hakimiyyətin daxilində ona kölgə salan qüvvələrdən danışıb. Ona görə də 2013-cü ildən Gülən hərəkatını zəiflətmək üçün yeni mərhələdə hərəkətə keçmişdir. İlk mərhələdə Türkiyədə Gülən camaatına bağlı təhsil mərkəzlərini məhdudlaşdıran planı həyata keçirdi. Bunun müqabilində Gülən də ilk dəfə olaraq Ərdoğanı Firona bənzətdi. Ötən bir neçə ayda Ərdoğan və Gülən arasındakı ixtilaflar bir növ hər birinin özünün haqq olmasını sübuta yetirmə yarışına çevrilib (http://www.hoosk.net).

Bu arada Ərdoğan-Gülənin qarşıdurması Azərbaycana birbaşa təsir qoya bilər. Gülən hərəkatının tərəfdarları Azərbaycanda artmasına baxmayaraq Ərdoğanın prezident olmasından sonra bu ölkəyə səfərində Azərbaycan rəsmilərindən gülənçilərin fəaliyyətini əngəlləmək barədə tələbinə müsbət cavab verildi və Gülən hərəkatını dəstəkləyən bir neçə dövlət rəsmisi vəzifəsindən azad edildi. Nümunə olaraq Dini İşlər üzrə Dövlət Komitəsinin sədri Elşad İskəndərov və Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanovlu göstərmək olar.

Azərbaycan rəsmilərinin bu hərəkatı tənqid etmək istəməmələrinə baxmayaraq sekülar və ya dini olmasından asılı olmayaraq müstəqil müxalif partiyalar aşkar surətdə bu hərəkatı tənqid edirlər. Bəzi liberal partiyalar sözü gedən hərəkatın Azərbaycan dövlətinə yaxın olmasından və demokratiyaya zidd münasibətindən narazılıqlarını bildiriblər (Ibid).

Sosioloq Eldar Məmmədovun[58] sözlərinə görə Azərbaycanda liberalların çoxu Gülən hərəkatının riyakarlıq və fürsət gözləməsindən narahatdırlar. 2011-ci ildə Azərbaycan dövləti ictimai azadlıq və söz azadlığı ilə bərk müqabilə etdi. Hərəkata bağlı Zaman qəzeti bir sıra məqalələr yazaraq hökumətin gələcək rəhbərlik barədə narahatlığını alqışladı. Bu məsələ də vətəndaş cəmiyyətinin fəallarının baxışları və sözü gedən hərəkatın Türkiyə və digər ölkələrdə demokratiyanı dəstəkləməsi iddiası ilə uyğun gəlmir (Ibid).

Gülən hərəkatı ilə Azərbaycanın mühüm dini qrupları arasında bərk qarşıdurmalar vardır. Şiə fəalları belə düşünürlər ki, bu hərəkat çox passiv və sekülardır. Məsələn, hicab qadağasına qarşı etiraz aksiyaları keçirilən vaxt bu hərəkat etirazlara qoşulmadı və sükut etdi. Həmçinin, dövlət məscidləri dağıdanda, yaxud bağlayanda, azanın verilməsini yasaqlayanda da sükut etdi. Ona görə də şiə liderləri bu hərəkatı riyakar və lazım olan təqvanı riayət etməyən bir hərəkat hesab edirlər və onları Azərbaycanda siyasi gücə nail olmaq üçün sırf təqiyyə etməkdə ittiham edirlər.

[58] . Eldar Mamedov.

Əhli-sünnə islamçıları da xüsusi olaraq Gülən hərəkatına tənqidlə yanaşırlar. Sələfi vəhabilərinə bağlı sosial şəbəkələrdə Nurçu hərəkatını dində bidət qoyan və qeyri-müsəlman adlandırırlar (Mamedov, 2012).

Vəhabilərin xalis İslam üçün tərif etdikləri standartlarına görə Gülən hərəkatının sufilik meyilləri, onun islami görünüşü, habelə hərəkatın sekülar camiəyə qarışması üçün cəhdləri İslamda ciddi xətalara yol vermələri kimi hesab edilir. Lakin, onların gülənçilərə qarşı bu qədər sərt mövqe tutmaları və bərk tənqidlərinə baxmayaraq bəzi vəhabi qrupları bu hərəkatın sekülar təşkilatlardan istifadə edərək sünnülüyün yayılmasında bir vasitə olmasını alqışlayırlar. Həmçinin, onlar şiə adət-ənənələrinə Gülən hərəkatı tərəfindən irad tutulmasına sevinirlər. Azərbaycanda təzə gəlmiş və barələrində bir çox şübhələr və stereotiplər olan vəhabilər və gülənçilər bu mövzuda ortaq mövqedə dayanırlar (Balci and Goyushev, 2012).

Lakin, onların hər ikisi (vəhabilər və Gülən hərəkatı) Azərbaycanda İslamın sünnü qoluna çevrilə bildi və yerli sünnülüyün yerini tutdular. Digər tərəfdən isə hər iki qrup şiə dəyərlərini problemlərlə üzləşdirmək üçün bir-birilə rəqabətə girmişdir və hər biri Azərbaycan əhli-sünnəsi arasında daha çox nüfuz qazanmağa cəhd edir.

### 2.4. Gülən hərəkatının təsiri

Gülən hərəkatının Azərbaycanda yayılması və onun ölkənin gənc nəsli ilə təhsil və iqtisadi əlaqələrinin genişlənməsi, din, siyasət və iqtisadiyyat barədə Gülən təfəkkürünün Azərbaycanın fəal islamçı hərəkatı kimi tədricən özünə yer tutması, Gülənin nəzəri komponentlarını dəyişən nəzarət kimi Azərbaycanın hazırkı ictimai və siyasi mühitinə daxil etmək və onun təsirini aşağıdakı sahələrdə araşdırmaq olar:

#### 2.4.1. Sekülar siyasi mədəniyyət

Bu mədəniyyət kommunistlərin 70 illik hökuməti dövründə Azərbaycana qəbul etdirilib və islami mədəniyyət sahəsinə mənfi təsir qoyub. SSRİ-nin dağılmasından sonra da bu ölkədə hakimiyyətə gəlmiş dövlətlər həmin siyasəti icra etmişlər. Azərbaycan, İran İslam Respublikasının islami mədəniyyətinin nüfuzunun qarşısını almaq məqsədilə qərb dəyərlərini dəstəkləməyi öz gündəliyə salmışdır. Bu siyasətin seçilməsi ilə Gülən hərəkatı kimi bir sıra hərəkatlar üçün yol açıq qoyulmuşdur ki, İran şiə islamının hərəkatının qarşısında alternativ rolu oynaya bilsinlər. Gülən hərəkatı türk və islam kimi iki amildən sonsuz bəhrələnir.

#### 2.4.2. Azərbaycana hakim milllətçilik

Bu ölkədə milliyyətçilik ən çox vətəndaş milliyyətçiliyi, ya da etnik millətçilik şəklində görünür. Birinci növ millətçilik ölkənin bütün etnik qrupları arasındakı dəyərlərə şamil olur və bütün fərdlərin kimliyini dəstəkləyir. İkinci növ millətçilik, yəni etnik millətçilik isə hakimiyyəti bir millətin əlində saxlayır və digər etnik qrupların mövqeini zəiflədir. Azərbaycanın siyasətində məzhəbə diqqət olunmur və dini yalnız kimliyin bir hissəsi kimi izah edirlər. Gülən təlimləri bu baxışa iradla yanaşır. Çünki sufi yönümlü və sünnüçülük təfəkkürü ilə İslam və İslam təlimləri üçün daha geniş rol nəzərdə tutmuşdur.

### 2.4.3. Kadr yetişdirmək

Gülən hərəkatı özü üçün hələ ki, təcrübəli və ümummilli çəkidə siyasi şəxsiyyətlər yetişdirə bilməyib. Bu hərəkatın üzvlərinin çoxu Azərbaycan xalqının yanında məqbul mövqe tuta bilməyib. Ölkə ictimaiyyəti hələ də Gülən hərəkatını əcnəbi hərəkat sayır. Ona görə də Gülən hərəkatına Azərbaycanın Qarabağ münaqişəsi kimi problemlərinin həllində potensial gözü ilə baxmaq lazımdır. Əlbəttə, hərəkatın Azərbaycandakı siyasətləri belə davam edəcəyi surətdə çox çəkməyəcək ki, Gülən tərəfindən tərbiyə olunmuş nəsil özünə siyasi mövqe tuta biləcək. Digər islami hərəkatların daxili və regional fəaliyyətlərinə diqqət etməklə Gülən hərəkatını bu islami hərəkatlar üçün böyük problem hesab etmək olar.

## 3. Nəticə

Sözsüz, Gülən hərəkatı Azərbaycan Respublikasının islami rəqabətlər sahəsində uğur qazanmış bir hərəkat kimi zühur etmişdir. Azərbaycanda fəaliyyətdə olan islami hərəkatların heç biri onun kimi belə geniş təşkilata malik olmayıb və biznes, xeyriyyə, lobbi və hamısından üstün olan təhsil sahəsində belə yüksək nüfuz qazana bilməyib. Qeyd edilən mövzulardan əlavə hərəkat öz ideoloji missiyasını aşkar etmədən yüksək nailiyyətlər əldə edə bilib. Bu məsələlər Gülən  hərəkatına qarşı bir sıra şəkk-şübhələrin yaranmasına səbəb olmuşdur və camiəyə qatılmaq fikrində olan islami bir hərəkat kimi şöhrət qazanmasına baxmayaraq hələ də ona dini-siyasi hərəkat hesab edilir.

Gülən hərəkatının uğurlarına və telorantlıq göstərməsinə baxmayaraq onun Azərbaycanda gələcək inkişafı məhdudiyyətlərlə üzləşmişdir. Liberal sekülarlar, intellektual sinif, şiələr, qeyri-türk azlıqları, hamısından önəmli sekülarizmin daxilində  olan adət-ənənələri özünə toplamış Azərbaycan camiəsinin Gülən hərəkatının inkişaf yolunun maneələridir. Hərəkatın türkçülük və İslama təkid etməsi digər qrupların ondan uzaqlaşmasına səbəb olur.

Yuxarıda qeyd olunanlardan əlavə, Azərbaycanda şiəlik milli və tarixi kimliyin mühüm bir hissəsi olaraq qalmışdır. Bu məsələ ölkənin cənub bölgələrində və Abşeron yarımadasında daha çox nəzərə çarpır. Gülən hərəkatı Azərbaycanın mühafizəkar şiələr yaşayan bölgələrində də çoxlu çətinliklərlə üzləşiblər. Tamamilə müəyyən rolu və siyasi nüfuzu olan Qafqaz Müsəlmanları İdarəsi və onun sədri Şeyxülislam Allaşükür Paşazadə Gülən hərəkatının qarşısında dayanan digər bir maneədir. Hərəkat öz fəaliyyətlərini asanlaşdırmaq üçün əvvəl gərək şiə məzhəbinin sünnü məzhəbinə çevrilməsi üçün şərait yaratsın, sonra da sünnülükdən nurçuluğa keçirə bilsin. Əlbəttə, bunun mümkünlüyü çox-çox zəifdir.

Həmçinin, hərəkat şəhər elitasını öz hədəfində saxladığı üçün kənd əhalisi və zəif təbəqədən kənarlaşır və belə olduqda əhli-sünnə arasında öz nüfuzunu itirir.

Ona görə də Gülən hərəkatı Azərbaycanda mütəmadi təzyiqlə fəaliyyətə məşğuldur.  Siyasi və qeyri-siyasi aparıcılar hərəkatın fəaliyyətini yaxından və  ciddi izləyir, onun nüfuzunu zəifl ətməyə cəhd edirlər. Azərbaycan cəmiyyətinin İslamın nüfuzuna qarşı diqqətli olması və Gülən hərəkatının gizli mahiyyəti ona qarşı şübhələrin yaranmasına səbəb olub və bundan sonra da olacaq.

Gülən hərəkatının doğrudan da Azərbaycan cəmiyyətinə qatılmaq fikrində olması, yaxud onun Türkiyə-İslami mahiyyət daşıması hələ də cavab tapıla bilməyən əsas suallardandır.

**Qaynaqlar:**

Rəməzani, Buniş Fərzad (1391), "Pədideyi Golən və təsirati an dər siyasəti xariceyi Turkiye". Mətnin elektron versiyası bu saytda yerləşdirilmişdir: http//:peace-ipsc.org/fa.

Aliyev, Fuad (2012) The Gulen Movement in Azerbaijan, avb: http://www.currenttrends.org/research/detail/the-gulen-movement-in-azerbaijan(Dec 27).

Alekperov, Jeyhun,( 2012) "The Turkish Gambit" and the view from over the ocean. Турецкий гамбит»и взгляд из-за океана," (Russian), The First News Azerbaijan, June 20, avb:

Arif Yunus,( 2012) Islamic Palette in Azerbaijan, Adiloglu, Baku.

Atacan, Fulya,(2001) "A Kurdish Islamist Group in Modern Turkey: Shifting Identities," Middle Eastern Studies, Vol. 37, No. 3 (Jul).

Balci, Bayram, (2003) "Fethullah Gülen's Missionary Schools in Central Asia and their Role in the Spreading of Turkism and Islam," Religion, State & Society, Vol. 31, No. 2.

Balci, Bayram & Goyushov, Altay,(2012) 2Changing Islam in Post-Soviet Azerbaijan and its impact on the Sunni-Shia cleavage," in: Maréchal,

Brigitte & Zemni, Sami, Contemporary Sunni-Shia relationships, Hurst & Co Publishers Ltd.

Davidov, M.N.,(2007) "The Activities of Turkish Religious Sect Nucular," Деятельность турецкой ре-лигиозной секты "Нурджулар"," (Russian, blog), November 3,. The Institute of the Near East, avb: www.iimes.ru/rus/stat/2007/03-11-07b.htm. Accessed in July 2012.

Dogan, Koc , (2011) Strategic Defamation of Fethullah Gulen: English vs. Turkish European Journal of Economic and Political Studies

Goksel, Nigar,(2011) "Religiously-Inspired Bonding: Changing Soft Power Elements in Turkey's Relations with Azerbaijan," Vol. 4, N. 8.

Ismaylova , Khadija,( 2003) "Nurchular" era in Turkey-Azerbaijan relations, Newspaper Ekho, January 18, (in Russian).

Mamedov , Eldar,(2012) "Azerbaijan: Evaluating Baku's Attitude toward the Gülen Movement," February 16, Eurasia.net 16.02.1012: http://www.eurasianet.org/node/65013.

Sık , Ahmet,(2012) "˙Imamın Ordusu," (The Army of Imam" in Turkish), avb: http://xeberler.files.wordpress.com/2011/04/51984426-dokunan-yanar.pdf

Telmanqizi, Turkan,( 2009) "Incredible Enticement Operations of Baku Nurcus,".

Turkan Turan and Sevinc Telmanqızı,( 2009) "Incredible Enticement Operations of Baku Nurcus," "Baki Nurçularinin Tükürpədici Cəlbetmə Əməliyyatlari," (Azeri), Yeni Musavat, June 2, avb: http://www.musavat.com/new.

Yavuz, Hakan,( 2004) "Opportunity Spaces, Identity, and Islamic Meaning in Turkey," in Islamic Activism: A Social Movement Theory Approach, ed. by Quintain Wiktorowicz (Bloomington ID: Indiana University Press), p. 40

http://1news.az/authors/130/20120620030903621.html#page999

http://az.trend.az/news/society/1077128.html

http://www.hoosk.net/fa/subjects-archive/azerbaijan/item/263.